TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASI

İQTISADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASI

DOQQUZUNCU İCLAS

Nur-Sultan, 20 may, 2022-ci il

“POST-PANDEMİYA İQTİSADİYYATI: KOS-LARA DÖVLƏT DƏSTƏYİ”

TÖVSİYƏ QƏRARLARI

Üzv ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyini **bir daha təsdiq edərək**;

Ölkələr və qlobal tərəfdaşlar arasında gələcək iqtisadi əməkdaşlıq üçün milli iqtisadiyyatların bərpası və gücləndirilməsi ehtiyaclarının **dərk edərək**;

Kiçik və Orta Müəssisələrin dövlət büdcələrinin formalaşmasında böyük paya malik olduğunu və onların davamlı işini asanlaşdırdığını **nəzərə alaraq**;

Hər bir dövlətin 2030-cu il Qlobal Gündəliyini yerinə yetirmək və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq öhdəliyini **qeyd edərək**;

Kiçik və orta sahibkarlığa institutsional dəstək sisteminin iqtisadiyyatın dayanıqlılığına şərait yaratdığını **bilərək**;

Dövlətdə düzgün və rasional iqtisadi və vergi siyasətinin olması şərti ilə biznes üçün güzəştlərin onun çiçəklənməsinə və dövlət büdcəsinə daxilolmalara gətirib çıxardığını **nəzərə alaraq**;

Sənaye İnqilabı 4.0 ilə hər bir sektorda iqtisadi inkişafın daha da gücləndirilməsinə **diqqət yetirərək**;

Dövlətlərin iqtisadi siyasətlərində yeni meyllər və pandemiya nəticələri ilə bağlı vəziyyət qloballaşmadan iqtisadiyyatların proteksionizminə (müdafiəsinə) keçidin yeni tendensiyalarını həyata keçirdiyini **diqqətə alaraq**;

TÜRKPA üzv dövlətlərinin parlament və hökumətlərinə **tövsiyə edir**:

- Üzv dövlətlər arasında iqtisadi əməkdaşlığa zərər vermədən, milli maraqları qorumaq üçün iqtisadi siyasət və idarəetmədə yanaşmaları yenidən nəzərdən keçirmək;
- Dövlət hökumətinin KOS-ların və onların hüquqlarının əsas təminatçısı olması üçün maksimum səy göstərmək və konkret tədbirlər görmək;
- dövlətlərdə kiçik və orta biznesin gücləndirilməsi üçün kiçik və orta sahibkarlığın məhsullarının ixrac bazarında satış mexanizmini işləyib hazırlamaq və qanunvericilik səviyyəsində konsolidasiya etmək;
- KOB-ların inkişafı ilə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanması üzərində işə KOS-ları cəlb etmək;
- xüsusilə kənd yerlərində və qeyri-paytaxt rayonlarında xüsusi proqramlar, maliyyə yardımları, məsləhətləşmələr və s. hazırlamaq və təşviq etməklə qadınların sahibkarlığını dəstəkləmək;
- KOS haqqında qanunvericiliyə edilən dəyişiklik və əlavələrin hazırlanması zamanı statistik məlumatlardan və araşdırmalardan istifadə etmək;
- ölkələrdə KOS-ların davamlı inkişafı və böyüməsi üçün pul kreditləşməsində İslam Bankçılığının prinsiplərini nəzərdən keçirmək;
- ölkələrdə KOS-lar üçün biznes məsləhət xidmətləri şəbəkəsini genişləndirmək;
- digər ölkələrdən olan KOS-ların dəstəklənməsi üçün yaxşı təcrübələrin tətbiqi imkanlarını nəzərdən keçirmək;
- qanunvericilik səviyyəsində kiçik və orta biznesin həyata keçirilməsi üçün mümkün vergi dərəcələri və şərtləri müəyyən etmək;

- dövlət büdcələrinə vergi daxilolmalarının artırılması məqsədilə kiçik və orta sahibkarlıq subyektləri üçün ədalətli vergitutmanın təmin edilməsi üçün qanunvericiliyin hazırlanması və həyata keçirilməsi;

- dövlətlər tərəfindən qəbul edilməsi üçün istifadə edilə bilən model qanunlar çərçivəsində sektorlar üzrə KOBİ-lərə dair aydın konseptual aparatın (təriflərin) işlənib hazırlanmasına kömək etmək;

- korrupsiyanın səviyyəsini azaltmaq və biznesi kölgədən çıxarmaq məqsədilə iqtisadiyyatın rəqəmsallaşdırılması üçün qanunvericilik və praktiki alətlərin işlənib hazırlanması.

- TÜRKPA-ya üzv dövlətlər arasında iqtisadi fəaliyyətlərin qarşılıqlı əlaqəsinin mövcud logistik yollarını genişləndirmək və KOM-ların mallarının qlobal bazara çıxmasına kömək etmək üçün tranzit dəhlizlərinin yeni yollarını nəzərdən keçirmək.

- Astana Beynəlxalq Maliyyə Mərkəzinin (AIFC) bazasında Türk Dünyası Ölkələrinin Elektron (Rəqəmsal) Ticarətinin İnkişafı üzrə Beynəlxalq Assosiasiyanı yaratmaq;

- Elektron (Rəqəmsal) Ticarət üzrə Vahid Platforma layihəsinin inkişaf etdirilməsi üçün türk dünyası ölkələrində bazar iştirakçıları, birliklər və dövlət orqanları ilə bir sıra məsləhətçi görüşlər və seminarlar keçirmək. (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan);

- Türk Dünyası ölkələrinin Elektron (Rəqəmsal) Ticarət üzrə Vahid Platformasının layihəsini hazırlamaq;

- Elektron (Rəqəmsal) Ticarət üzrə Vahid Platformanın inkişafı və daha da təşviqi üçün Yol Xəritəsinin hazırlanması;

- Elektron (Rəqəmsal) Ticarət üzrə Vahid Platformanın sınaqdan keçirilməsinə başlamaq;

- Türk Dünyası ölkələrində mövcud və perspektiv iqtisadi, nəqliyyat və tranzit dəhlizlərinin inkişafı üçün məhdudiyyətlərin, maneələrin müəyyən edilməsi üçün beynəlxalq araşdırmalar aparmaq.